AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNIVERSİTETİ

Əlyazması hüququnda

İRADƏ BƏKİR QIZI ABDULLAYEVA

# AMERİKA ƏDƏBİYYATINDA BƏDİİ SİMVOLLAR (UILIAM BRAYANT, EDQAR ALAN PO VƏ CON STEYNBEK YARADICILIĞI ƏSASINDA)

5718.01 – Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2014

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Xarici ölkələr ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya üzrə elmlər doktoru, professor<br>Vaqif Minad oğlu Arzumanlı |
| Rəsmi opponentlər: | filologiya üzrə elmlər doktoru, professor<br>Şahin Həmid oğlu Xəlilli |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>Əzizə Qurban qızı Məmmədova |
| Aparıcı təşkilat: | Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrası |

Müdafiə __27/ 09__________ 2014-cü ildə saat ______-da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı, R.Behbudov küç., 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___________________________ 2014-cü ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru,
dosent Sevda Davud qızı Vahabova

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Simvolların işlədilməsi Amerika ədəbiyyatında bu gün də geniş yayılmış ədəbi-bədii üsuldur. Qədim dini və milli simvollardan istifadə olunması Amerika ədəbiyyatında simvolların hələ şifahi xalq ədəbiyyatı dövründən əmələ gəldiyinə ən bariz misaldır. «Amerika ədəbiyyatında simvolların işlədilməsi» mövzusu bu gün olduqca aktualdır.

Hazırki dissertasiya işi məşhur Amerika ədibləri Uilliam Kullen Brayant, Ralf Valdo Emerson, Edqar Alan Po və Con Steynbek yaradıcılığına həsr olunmuşdur.

*«Amerika ədəbiyyatında bədii simvollar» (Uilliam Kullen Brayant, Edqar Alan Po və Con Steynbek yaradıcılığı əsasında) indiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında araşdırmalar aparılmamışdır.*

Qeyd etmək lazımdır ki, bu ədiblərin hər biri həm Amerika, həm də dünya ədəbiyyatında özünəməxsusluğu ilə sevilib-seçilən müəlliflərdəndir.

XIX əsrin birinci yarısında «Yeni Nyu-York qrupu» Amerika poeziyasının məşhur qollarından biri idi. Onun ən görkəmli nümayəndələrindən biri keşiş ailəsində doğulub boya-başa çatmış Uilliam Kullen Brayantdır. Məhz bu səbəbdən onun əsərlərinin demək olar ki, hamısı Puritan nöqteyi-nəzərindən bəhrələnərək yazılmışdır. Bu yönümdən onun əsərlərini təhlil etmək çox vacibdir. Yaradıcılığı və şəxsiyyəti həddən ziyadə ziddiyyətli olan Edqar Alan Ponun əsərlərində simvolların işlədilməsi, onların məna çalarlarının açılması, insanın simvolik təsviri və Po poeziyasının poetik prinsipləri səpkisində Azərbaycan ədəbiyyatşünaslığında çox az tədqiqat işi aparılmış və ya heç aparılmamışdır. Bütün deyilənlər bu mövzunun aktual olduğunu bir daha sübut edir.

Con Steynbekin həyat və yaradıcılığı bir sıra Amerika və dünya tədqiqatçılarının diqqətini hələ XX əsrin birinci yarısından cəlb etdiyinə baxmayaraq, onun əsərlərinin təhilili və tədqiqi sahəsində xeyli boşluqlar vardır. Bu mənada Con Steynbek yaradıcılığı haqqında Azərbaycan ədəbiyyatşünaslığında bəzi araşdırmalar aparılmasına baxmayaraq bu mövzuda geniş və əhatəli öyrənilməmişdir. Con Steynbek yaradıcılığında istifadə olunmuş simvolların məna açılışı, Amerika reallığı haqqında müfəssəl bilik əldə etmək istəyi bu dissertasiya işinin aktuallığını bir daha təsdiq edir.

*Tədqiqatın obyekti.* Hazırki tədqiqat işində biz əsas obyekt kimi Amerika ədəbiyyatının görkəmli ədibləri Uilliam Kullen Brayant, R.V.Emerson, Edqar Alan Po və Con Steynbekin bəzi əsərlərini tədqiqata cəlb etmişik. Bunlar U.K.Brayantın «Ölüm Kabusu» (Thanatopsis), Bir su

quşuna» (To a Waterfowl), «On üç yaşlı gənc» («Yourth of Thirteen»), «Şair» («The Poet»), «Qadağa və ya Zamanın qısa xülasəsi» («The Embargo; or Sketches of the Times»), «Meşəyə girmək üçün icazə» («The Inscription for Entrance to Wood»), «Əsrlər» («The Ages»), «Saymonidensdən fraqment» («The Fragment from Simonides»), «Sarı bənövşə» («The Yellow Violet»), «Mahnı» («The Song»), «Yaşıl çay» («Green River») əsərlərini; E.A.Ponun «Yuxular» («Dreams»), «Yuxu içində yuxu» («A Dream Within a Dream»), «Eldorado» («Eldorado»), «Kabuslar sarayı» («The Haunted Palace»), «Əl Əəraaf» («Al Aaraaf»), «Romans» («Romance»), «Helenə» («To Helen»), İsrafil» («Israfel»), «Quzğun» («The Raven»), «Zənglər» («The Bells»), «Anabel Li» («Annabel Lee»), «Aşerlər evinin süqutu» («The Fall of the House of Usher»), «Ru Morqda qətillər» («The Murders in the Rue Morgue»), «Qırmızı ölümün masqarası» («The Masquer of the Red Death»); Con Steynbekin «Payız gülləri» («The Chrysanthemums»), «Mirvari» («The Pearl»), «Ay batdı» («The Moon is Down»), «Narahatçılığımızın qışı» («The Winter of our Discontent»), «Qəzəbin dalğası» («The Grapes of Wrath») əsərləridir.

Bu əsərlərdəki simvollar, elmi, estetik mənalar təhlil edilmiş, onlar barədə söylənən fikirlər nəzərdən keçirilmiş və bir sıra ümumiləşdirmələr aparılmışdır.

*Mövzunun öyrənilmə dərəcəsi.* Azərbaycan ədəbiyyatşünaslığında bəzi kiçik yazılar nəzərə alınmasa, demək olar ki, bu sahədə sanballı tədqiqat işi aparılmamışdır.

Dissertasiya işində Uiliam Kullen Brayant haqqında birbaşa ingilis dilində olan mənbələrdən, xüsusən P.Qodvının 1883-cü ildə nəşr etdirdiyi «U.K.Brayantın əsərləri və həyatı», Riçard Henri Danakin tənqidi məqalələrindən, Edmund Fullerin «Amerika ədəbiyyatından macəralar» kitabından və bir sıra digər əsərlərdən istifadə edilmişdir.

E.A.Po haqqında istər ingilis, istərsə də Azərbaycan və rus dillərində mövcud olan ədəbiyyatdan istifadə olunmaqla yanaşı, yaradıcılığı bütünlükdə nəzərdən keçirilmiş, şairin poeziyasında insanın simvolik təsviri, onun daxili aləminin açılışı və düşüncələri barədə təhlillər aparılmışdır.

Azərbaycan ədəbiyyatşünaslığında Con Steynbekin yaradıcılığı bir qədər diqqət mərkəzindən kənarda qalmışdır. Professor Zeydulla Ağayev öz doktorluq dissertasiyasında yazıçının Amerika nəsrində tutduğu mövqeyindən ötəri də olsa yazmış və yazıçı Manaf Süleymanov onun «Mirvari» povestini ana dilimizə çevirmişdir. Hazırkı dissertasiyada rus dilində

S.Baturinin «Con Steynbek və Amerika ədəbiyyatı ənənələri» (1984), A.Fyodorovun «Con Steynbek» (1965), A.S.Mulyarçikin «Con Steynbek yaradıcılığı» (1963) monoqrafiyalarından və bir sıra digər mənbələrdən bəhrələnərək mövzunun öyrənilmə dərəcəsi xeyli genişləndirilmişdir.

Dissertasiyanın nəzəri metodoloji əsaslarını Azərbaycan və dünya ədəbiyyatşünaslığının nailiyyətləri təşkil edir. Tədqiqatda U.K.Brayant, E.A.Po və Con Steynbek yaradıcılığını təhlil etmək üçün onların ədəbi irsi Amerika, Azərbaycan, habelə dünya ədəbiyyatı ilə müqayisədə öyrənilmiş, müqayisəli-tarixi metoda əsaslanaraq nəzərdən keçirilmişdir. Bütün bunlarla yanaşı, Azərbaycan, Amerika, rus və dünya ədəbiyyatşünaslarının XIX, XX əsr Amerika ədəbiyyatı və U.K.Brayant, E.A.Po və Con Steynbeklə bağlı monoqrafiyalardakı elmi-nəzəri müddəalar və əsas elmi yeniliklər də tədqiqatın hazırlanmasında elmi zəmin rolu oynamışdır.

*Tədqiqatın məqsəd və vəzifələri.* Tədqiqatın əsas məqsədi Amerika ədəbiyyatının görkəmli yazıçılarının – U.K.Brayantın, E.A.Ponun və C.Steynbekin yaradıcılığında simvolların işlənməsini araşdırmaq, daha doğrusu bu məsələnin üç tanınmış ədibin yaradıcılığında yerini, təkamülünü və həllini müəyyənləşdirməkdir.

Bu məqsədlə dissertasiyada aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

– U.K.Brayantın poeziyasında işlənmiş simvolların məna çalarlarını müəyyənləşdirmək;

– E.A.Po yaradıcılığının poetik prinsiplərini və onun əsərlərində insanın simvolik təsvirini araşdırmaq;

– E.A.Ponun poeziyasında simvolik obrazlar və onların bədii xüsusiyyətlərini tədqiq etmək;

– C.Steynbekin XX əsr Amerika ədəbiyyatında yerini və xidmətlərini üzə çıxarmaq;

– C.Steynbek poeziyasındakı simvolların səciyyəvi xüsusiyyətlərini nəzərdən keçirmək.

*Dissertasiyanın elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti.* Mövcud dissertasiyanın mövzusu hazırki kontekstdə istər Amerika, istərsə də Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfədir ki, araşdırılır. Tədqiqat işi hər üç ədibin əsərlərində işlədilmiş simvolların məna çalarlarının açılışı, insanın simvolik təsviri, insan, məhəbbət və simvolların poetik prinsiplərinin təhlili baxımından ilk elmi tədqiqat işi və monoqrafik araşdırmadır. U.K.Brayant, Ralf Valdo Emerson (1803-1882), Henry David Toro (1817-1862), Uolt Uitman (1819-1892) kimi Amerika ədəbiyyatının görkəmli nümayəndələrinin bir çox əsərləri Azərbaycan ədəbiyyatşünaslığında ilk də-

fədir ki, tədqiqata cəlb olunur.

İşin E.A.Ponun yaradıcılığına həsr olunmuş bölməsində əsas məqsəd onun müxtəlif illərdə çap edilmiş fantastik, dedektiv əsərləri ilə yanaşı ümumiyyətlə bütün əsərlərində insanın simvolik təsvirini, təhlil olunan əsərlərinin üslubi özünəməxsusluğu, yazıldığı şərait, janr müxtəlifliyi barədə ümumiləşdirmələr aparmaq və yeni elmi fikirlər irəli sürməkdir.

Dissertasiyada Con Steynbekin yaradıcılığına həsr olunmuş bölməsində əsasən müəllifin hekayələri tədqiqata cəlb olunsa da, yazıçının Amerika və dünya ədəbiyyatında tutduğu yeri müəyyənləşdirmək üçün XX əsr Amerika nəsrinin inkişafı yolları haqqında da müxtəsər məlumat verilir. Onun məşhur «Qəzəb salxımları» romanında istifadə etdiyi fəlsəfi fikirlər, simvollar, habelə Nobel mükafatı almış «Peşimançılığımızın qışı» («The winter of Our Discontent») əsəri də qismən araşdırmaya cəlb olunmuşdur.

*Dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti* ilk növbədə mövzunun aktuallığı, onun ilk dəfə sistemli şəkildə araşdırılması, gələcəkdə Azərbaycan ədəbiyyatşünaslığında U.K.Brayan, E.A.Po və Con Steynbek yaradıcılıqları haqqında tədqiqatların aparılması ilə səciyyələnir. Bu istiqamətdə gələcəkdə yeni işlərin yazılması və yeni kitabların nəsrinə köməklik edə bilər. Bu dissertasiya işi həm də təcrübi cəhətdən əhəmiyyətlidir. Bu tədqiqatdan Azərbaycan, ingilis, Amerika və dünya ədəbiyyatından Azərbaycan universitetlərində və digər təhsil ocaqlarında bakalavr, magistr pillələrində mühazirə və seminarların tədrisi zamanı istifadə oluna bilər.

*İşin aprobasiyası.* Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun «Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr» şöbəsində hazırlanmışdır. Tədqiqatın mövzusu AMEA-nın Nizami adına Ədəbiyyat İnstitunun Elmi Şurası tərəfindən təsdiq olunmuşdur. Dissertasiya ilə bağlı müəllifin məqalələri müxtəlif elmi məcmuə, toplu və jurnallarda çap olunmuşdur. Dissertant mövzu ilə bağlı bəzi elmi konfrans və sessiyalarda məruzə və çıxışlar da etmişdir.

*Dissertasiyanın strukturu.* Tədqiqat işi giriş, altı yarımfəsili özündə birləşdirən üç fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

"Giriş"də mövzunun aktuallığı, tədqiq tarixi, tədqiqatın məqsəd və vəzifəlri, dissertasiyanın elmi yeniliyi və təcrübi əhəmiyyəti, tədqiqatın metodları aydınlaşdırılır.

Dissertasiyanın *"Uilliam Kullen Brayant və ABŞ poeziyasında simvolların məna çalarları"* adlanan iki hissədən ibarət birinci fəslində Amerika ədəbiyyatının görkəmli nümayəndələri Uilliam Kullen Brayantın və Ralf Valdo Emersonun poeziyasında simvolların işlədilməsindən bəhs olunur.

Birinci yarımfəsil "U.K.Brayant poeziyasında simvollar" adlanır. XIX əsr Amerika poeziyasının məşhur qollarından biri olan "Yeni Nyu-York qrupu"nun (New York Group) ən tanınmış nümayəndələrindən biri U.K.Brayant Massaçusets ştatında keşiş ailəsində anadan olmuşdur. O, 1821-ci ildə Massaçusetsdə şeir və poemadan ibarət ilk kitabını nəşr etdirmişdir. Bu kitaba salınmış əsərləri ilə U.K.Brayant Amerika poeziyasında simvolizmin əsasını qoymaqla yanaşı, poeziyada yeni sənət müəllifi kimi tarixə düşmüşdür.

U.K.Brayantın ən məşhur əsərlərindən biri "Ölüm kabusu" adlanır. Təbiətlə bağlı simvollar, sinonimlər, metaforalar və yeni ədəbi-bədii terminlərlə zəngin olan bu poema «Thanatopsis» (Yunanca ölüm görünüşü – Greek meaning view of death) adlanır. Bu poema ilə müəllif Amerika poeziyasının ən iri həcmli şeirinin əsasını qoymuşdur. Bu əsər ona görə qiymətlidir ki, orada gənc şair sərbəst şeir vəzni ilə bütün ifadələrin və sözlərin qüvvəsindən tam istifadə edə bilmişdir.

Sərbəst şeir vəzni adından göründüyü kimi, misraların həm həcmi, misra arası bölgü, həm də qafiə sistemi etibarilə sərbəstliyə daha çox imkan verir. Bu növ şeir hər sətrdə eyni heca vəznini saxladığına görə başqalarından seçilir. Birinci sətrdə verilmiş məna mexaniki olaraq o biri sətrə keçir və həmin sətrin ortalarında tamamlanır. Bu zaman simvollar bütün sətrlərdə olan mənaları birləşdirir. Həmin simvolları başa düşmək üçün bütün cümləni oxumaq və onun mənasını anlamaq lazımdır. Belə hallarda əgər hər hansı sətrin və cümlənin mənası başa düşülməyəndə həmin cümlənin mübtədasını tapmaq və onunla bütöv mənanı və simvolları dərk etmək lazımdır. «Ölüm kabusu» əsərində olduğu kimi.[1]

U.K.Brayant bütünlükdə dinə, qədim adət-ənənəyə sadiqlik simvolunu

---

[1] An Antology of English and American Verses. M.: Proqress, 1972, s. 95.

tərənnüm edir. Şair əsərində «Barcan pertaining to Barca» ifadəsini işlədərkən Aralıq dənizinin sahillərində, daha doğrusu, Şimali Afrikada yerləşən Barka adlı yerə işarə edir və burada simvolik elementlərin imkanlarından istifadə olunur.

U.K.Brayant «Meşəyə girmək üçün icazə» şeirində isə mülayim küləyi, mavi səmanı, qayaları, quşları, həşəratları canlı və realist təsvir edir.

"… the thick wat
Of green and stirring branches is alive
And musical with birds"

Bütünlükdə təbiətin təsviri U.K.Brayantın poeziyasının əsas məzmununu təşkil edir:

"…feelings of calm power and mighty sweep,
Like currents journeying through the windless deep"

Təbiəti bu şeirdə tarla kimi təqdim edir. Bu sətirlərdə U.K.Brayant hisslərini poetik ifadələrlə izah edir. Gözəl təbiət təsvirini verərək, onu gözəl xanımının çöhrəsinə və ürəyinə bənzədir. Şən küləkdən tutmuş otlar, həşəratlara qədər hər şeyin təsvirini verir.

Belə demək olar ki, U.K.Brayant da Ceyms Fenimor Kuperin «Ləpirçi», «Sonuncu mogikan» və s. əsərlərində olduğu kimi, meşədən, təbiətdən ilham alır.

"Thou art in the soft mints
That run along the summit of this trees in music"

Bu parça U.K.Brayantın 1825-ci ildə yazdığı «Meşə himni» («Forest Hymn») şeirindəndir. Bu şeirdə o vaxta qədər heç bir puritian allahı meşə çiçəyinin təbəssümünü bu qədər gözəl təsvir etməmişdir. Allahın yaratdığı hər bir gözəllik onun ürəyini riqqətə gətirir. Yaşıl yarpaqların titrəməsi onu həyəcanlandırır.

O zamanlar təbiət mövzusunda yazılmış çoxlu poetik nümunələr var idi. Lakin bu əsər bəzi cizgilərinə görə fərqlənirdi. Bu gözəl çiçək bir xoşbəxt insana, dərindən nəfəs alıb gülümsəmək isə onun təbiəti nə qədər sevdiyinə bir işarədir. Burada isə qəlb və duyğu ilə təsvir olunan əsər özünü tamamlamışdır. Bəlkə də U.K.Brayant sənət zirvəsinə bu şeirlə çatmışdır. Baxmayaraq ki, iyirmi beş yaş yaşamış Con Kitsdən, otuz yaşında vəfat etmiş Pösi Şellidən uzun ömür sürmüş (U.K.Brayant səksən dörd il yaşamışdır) şair çox az şeir yazmışdır. Onun Amerika ədəbiyyatında özünəməxsus izi, üslubu, təbiətə yanaşma tərzi qalıb. Sevindirici odur ki, U.K.Brayant ömrünün sonunda «Şair» (1863), «İllərin axını» (1876) şeirlərində özünün son sözünü deyə bilmişdir.

U.K.Brayant poeziyası düşündürücü və təsviredici xüsusiyyətlərə malik ilk Amerika şairi idi. Bu cəhət onun tədqiqatçılarının da diqqət mərkəzində olub.

U.K.Brayantın ömrünün son illərində yazdığı şeirlərində («Şair», «İllərin axını») gəncliyində yazdığı şeirlərdəki fikirləri təkrarlamışdır. Bir qayda olaraq o daha çox səmanı, meşəni, gülləri, çayların axınını, heyvanları, təbiət mənzərəsini təsvir etmiş və həmişə puritianların yüksək ideallarını əks etdirməyi daha üstün tutmuşdur.

"ABŞ poeziyasında simvolların işlənməsi tarixindən" adlanan ikinci yarımfəsildə görkəmli Amerika ədibinin şeir və poemalarında simvolların işlənməsindən bəhs olunur.

R.V.Emerson (1803-1882) poeziyasında əsas mövzular təbiətlə bağlıdır.

1833-cü ildə R.V.Emerson Avropaya səyahətə çıxır. İngiltərəyə qayıdarkən ingilis şairləri Səmyuel Teylor Kolric (1772-1834), Uilyam Vördzvort (1770-1850) və Tomas Karlayl (1795-1881) ilə görüşür. Bu şairlərin hər biri R.V.Emersona böyük təsir göstərmişdir. Hətta o, Tomas Karlayl ilə uzun illər dostluq da etmişdir. Avropadan qayıtdıqdan sonra isə R.V.Emerson o zaman ABŞ-da ən məşhur şəhər olan Konkordda daimi məskunlaşır və ömrünün sonuna qədər orada yaşayır.

Emersonun şeirlərində iki istiqamət diqqəti daha çox cəlb edir: təbiət və transendental fəlsəfə. O çox az şeir yazmasına baxmayaraq onun yazdığı poetik nümunələr Amerika poeziyasında mühüm və əhəmiyyətli yerlərdən birini tutur. Onun xeyli yüksək səviyyədə yazılmış və təbiətə həsr olunmuş şeirləri bu gün də Amerika poeziyasının incilərindən hesab olunur. R.V.Emerson da U.K.Brayant kimi meşəni, təbiəti sevsə də, qeyd etmək lazımdır ki, onun təbiət haqqındakı fikirləri daha aydın, daha demokratik və daha lirik səslənir. Bunu R.V.Emersonun «Şair» şeirindən götürülmüş iki misrada daha aydın görmək olar:

"I go to the God of wood
To fetch his word of men"[1]
(Mən Allah sayılan
meşəyə gedirəm…
onun insan haqqında
fikirlərini gətirim).

R.V.Emersonun şeirlərində tez-tez «Allah» anlayışının, onun ilahi var-

[1] Emerson R.V. Essays and Poems. New York, Columbia U.P., 1968, p. 34.

lıqla bağlı olduğuna əyani sübutdur. O həmişə Allahı, dini sevmiş və ona itaət etmişdir. Lakin bu itaətkarlıq onun incəliyindən və həlimliyindən əmələ gəlib. Allah anlayışının təkrarı onun çox şeirlərində əks olunur.

Şair dənizi çox sevir və dəniz sahilində özünü ilahi bir varlıq kimi hesab edir. Dənizin böyüklüyü kimi o, dəniz sahilində özünü daha qüdrətli, daha güclü insan kimi hiss edir. «Dəniz təmizdir, dəniz ülvidir, dəniz səxavətlidir» - deyən şair, sanki dənizin ülvi və təmiz olduğunu lirik dillə öz oxucusunun qulaqlarına pıçıldayır. Onun bu şeirində bənzətmə, metafora, epitet, sinonim, antonim kimi bir sıra ifadə vasitələrindən simvollar kimi istifadə edilmişdir. «Sınmış küknar» ağacının təsvirində müəllif insanların təbiətə vurduğu ziyanı qələmə almaqla «Sınmış küknar» ağacını simvol kimi göstərir. O sanki insanların arzusunun puç olduğunu demək istəyir. Emersonun bu şeirindəki təbiət təsviri, zənnimizcə, poetik baxımdan bütün Amerika ədəbiyyatında yazılmış şeirlərdən yüksəkdə durur. Burada onun təbiətə olan məhəbbəti sonsuzdur, ilahidir.

Onun şeirlərini oxuyarkən biz təbiətin insan həyatını zənginləşdirdiyini, sevincinin artırdığını, bəzən də kədərini hiss edirik. İnsanın təbiətlə əlaqədə olduğu gün ən yaxşı günü hesab olunur.

R.V.Emersonun təbiətə həsr olunmuş ən maraqlı şeirləri bunlardır:

«Meşə qeydləri», «Bal arısı», «Özüm və hamı», «Qar fırtınası», «Cənublu Helenə».

Onun bəzi fəlsəfi fikirləri isə «Problem», «Sfinks», «Brahma» kimi şeirlərində ifadə olunur. Bunların içərisində «Problem» şeiri daha çox diqqəti cəlb edir.

«Problem» şeirində Emerson Allahın təbiətə xas olan hər bir canlı və cansızında mömcudluğunu və daxili aləm haqqında öz fikirlərini belə qələmə almışdır:

“Himself from God he could not free:
He built better than he knew: –
The conscious stone to beauty grew”.
(Allahın varlığından o, heç vaxt azad ola bilməz,
Onun varlığı ilə gözəllik yaranır daşın üstündə).

Burada müəllifin çox maraqlı bir fikri öz əksini tapmışdır: Daşdan gözəllik yaradan heykəltəraş bu ilahi qüvvə ilə gözəllik yaradır. Şairin fəlsəfəsinə görə ilahi qüvvənin təsiri ilə yaradıcı insan möcüzələr yaradır.

R.V.Emersonun poeziyasında bəzən gözəl musiqi duyumu hiss edilir və bu hiss qəfildən sınır, sonra isə onun hər misrasında bir mirvari üzə çıxır. R.V.Emersonun əsas məqsədi daxili mənəvi inkişafı əks etdirməkdir. O,

Amerika poeziyasında böyük etik müəllimlərdən biri hesab olunur. Onun şeirlərindəki inam gələcəyə optimist şəkildə yanaşmasına kömək edir.

Dissertasiyanın *"Edqar Allan Po poeziyasında insanın simvolik təsviri"* adlanan ikinci fəslində ən məşhur əsərlərində simvolların işlənməsi araşdırılır.

Edqar Alan Po (1809-1849) Bostonda (Massaçusets ştat) anadan olmuşdur. Onun yaradıcılığı daim Amerika və bir sıra xarici ölkələrin ədəbi tənqidçilərinin diqqət mərkəzində olmuşdur. Onun ədəbiyyata gətirdiyi yeniliklər, üslub rəngarəngliklәri Po yaradıcılığına olan ehtirasları daha da alovlandırmış və onu Amerika ədəbiyyatının klassikləri cərgəsinə qədər yüksəldə bilmişdir.

E.A.Po elmi-fantastik janrla yanaşı, detektiv janrda yazdığı əsərləri ilə məşhur olduğu qədər də öz poeziyası ilə də həmişə oxucularının rəğbətini qazanmışdır. Onun şeirləri həddən ziyadə şaxəli olmuş, lirikliyi ilə seçilmişdir.

E.A.Po bir-birinin ardınca gözəl şeirlər yazmış və ömrünün axırlarına yaxın məşhurlaşmağa başlamışdır. O özünün yaradıcılığında təsvir etdiyi bir sıra surətlər kimi dəli olmaq dərəcəsinə qədər gedib çıxmışdır.

İkinci fəslin "E.A.Ponun poetik prinsipləri" adlanan birinci yarımfəslində görkəmli ədibin poeziyasının səciyyəvi xüsusiyyətlərindən və görkəmli ədibin Amerika dedektiv ədəbiyyatında xidmətlərindən bəhs olunur.

E.Po təkcə şair simvolist kimi deyil, eləcə də güclü erudisiya, məntiqə və analitik düşüncəyə söykənərək faciəvi və dramatik konfliktlərin qaynağı olan kriminal araşdırmaların nəql edilməsinin ustadı, yəni özünün dediyi kimi «məntiqi hekayələri» (tales of ratiocination) yaradıcısı kimi Amerika və eləcə də dünya ədəbiyyatında özünəməxsus yerini tutmuşdur. Detektiv ədəbiyyatın təməlini qoyan E.Ponun əvəzsiz xidməti cinayət təhqiqatının belletristik nəql etmə obyektinə çevirmək mümkünlüyündən istifadə etməsidir. E.Poya dünya ədəbiyyatında detektiv janrının yaradıcısı adını qazandıran onun dörd hekayəsi «The murder in the Rue Morgue» («Morq küçəsində qətl» (1841), «The mystery of Marie Roget» («Mari Rojenin sirləri») (1842), «The Gold Bug» («Qızıl böcək») 1843 və «The purloined Letter» («Oğurlanmış məktüb») (1844) olmuşdur. Onun iki detektiv hekayəsinin baş qəhrəmanları olan Düpen və Leqranın fərdi xüsusiyyətlərini A.Konan Doyl, A.Kristi və digər detektiv yazıçıların yaratdıqları obrazlarda görmək mümkündür. Məsələn, E.Ponun detektiv hekayələrinin qəhrəmanı olan Öqust Dupenin deduktiv metodlardan istifadəsi, analitik təhlil etmə üsulları, bəzi xarakterik xüsusiyyətləri, polisləri gülünc və-

ziyyətə salma istedadı, polisləri dolaşıq və çətin hadisələrdə çox vax ona üz tutması, şəxsi deduktiv metodlarından istifadə etməsi ilə ağır cinayətlərin açmaq qabiliyyəti və s. kimi keyfiyyətləri Artur Konan Doylın təxminən 50 ildən sonra yazdığı detektiv hekayələrinin qəhrəmanı olan filosof Şerlok Holmsda da nisbətən fərqli tərzdə müşahidə etmək mümkündür. Düpen və Ş.Holmusun ayrı-ayrı müəlliflərin yaratdıqları qəhrəmanların oxşar cəhətləri, əlbəttə, diqqətimizdən yan ötmədi. Məsələn, məşhur ingilis yazıçısı Artur Konan Doylun 1892-ci ildə yazdığı «The Red-headed League» («Qırmızı başlı Liq») detektiv hekayəsində törədilmiş qatı cinayətin açılmasında çətinliklərlə üzləşən və artıq Scotland Yardda öz deduktiv metodları məşhur sayılan, belə cinayətlərin açılmasının mahir ustadı kimi tanınan Şerlok Holms polis məmuru Mr.Cons tərəfindən təsvir olunur.

E.Po hesab edirdi ki, məntiqi hekayə anlamı olduqca geniş və çoxşaxəlidir. Əsərin qəhrəmanı təhlil aparır, faktları üst-üstə qoyur, hər bir detalı və fərziyyəni şübhə altına alaraq onu dərindən analiz edir. Güclü erudisiya və məntiqlə düşünmə qabiliyyəti işə salınır. Onun intellekti səhvən qurulmuş fərziyyələri yox edərək yerində məsələnin həllində yardımçı ola bilən danılmaz konsepsiyaları qurur. Detektiv hekayələrin əsas pafosu məhz əqlin düzgün etdiyi nəticələrin ifadəsində və açıqlanmasındadır. Yazıçıya təbiət tərəfindən bəxş olunmuş analitik düşüncə tərzi və insan psixologiyasının dərindən bilməsi, onun yazdığı hekayələrdə buna müvəffəq olmağa imkan yaradırdı.[1]

Onu da qeyd etmək lazımdır ki, Avropa və eləcə də Amerika E.Ponu həm də qorxulu hekayələr ustadı və banisi kimi tanımışdır. Onun qəhrəmanları əksər hallarda qeyri-sağlam iradə və psixi durumu olan, özünü qorxu və vahiməsi içində yaşayan, cinayət törədən insanlardır. O öz hekayələrində böyük maraqla və bütün detalları ilə cinayətin törədilmə planını və onun harda və necə baş verəcəyini təsvir edir, canlı varlıqların fiziki parçalanması və dağılmasının formalarını göstərməyə çalışır. O, «The narrative of Gordon Pym» («Qordon Pubun söhbəti») (1838) hekayəsində aclığın və susuzluğun verdiyi əzablarının təsviri, detektiv janrda yazılmış «The Detath in the Rue Morque» («Ru Morqda ölüm») hekayəsində isə, meyidlərin üzərindəki zədə yerlərinin bütün xırda detallarına kimi qələmə almışdır. «The Case with Mr. Valdemar» («Mister Voldemarın əhvalatı») hekayəsi insan öldükdən sonra cəsədin çürümə prosesi səhnələri ön plana çəkilir. Ümumiyyətlə, onun bu mövzuda yazdığı hekayələrində, canlı

---

[1] Edqar Allan Poe. Proza and Poetry. M.: Raduga, 1983, p. 258.

varlıqlar – insan bədənin, heyvanın parçalanmış, didilmiş, eybəcər hala salınmış vəziyyətinin təsvirinə daha çox diqqət yetirilir. «The Black Cat» («Qara pişik») (1843) hekayəsindəki qəhrəman sadist hisslərlə idarə olunaraq sevdiyi pişiyi əvvəlcə şikəst edir, sonra isə asaraq onu öldürür.

İkinci fəslin "E.A.Ponun poeziyasında simvolik obrazlar və onların bədii xüsusiyyətləri" adlanan ikinci yarimfəslində deyilir:

E.Ponun yaradıcılığının ilkin dövrlərinə təsadüf edən lirikasında yuxu anlamı xəyallar, xatirələr, bir antireallığın təcəssümüdür, ötən anları əks etdirə bilən emosiyalar dünyasının təsviridir. Şairin birinci şeir toplusuna daxil olmuş şeirləri özünəməxsusluğu ilə fərqlənir. Şeirlərdə şairin nəzərindən insanlar, hadisələr, hal-vəziyyət kimi kateqoriyaların keçməsi deyil, əslində hiss və duyğuların, arzu və fantaziyaların keçmişdən qaytarıb onların gözləri önündə canlandırılmasıdır. Onun keçmişi həqiqətin qanunlarına tabe olmayan yuxu, xəyal formasını alan emosiyalar, hisslərin, arzuların dünyasıdır. E.Po poeziyasında məkan və zaman anlayışı minimum həddə çatdırılır, bəzən isə yox dərəcəsində olur. Real həyat yuxularda mövcud olan dünya ilə, görüntülərlə, xatirələrlə əvəzlənir. Yada düşən məhz hadisələr deyil, yaşananlar, hiss və həyəcanlar, emosiyalardır.

Romantik incəsənətdə ikili dünya konsepsiyasında reallığın bir yuxu, xəyal kimi təsvirləri ilə rastlaşdığımız kimi, E.Ponun şeirlər toplusuna daxil olan əsərlərində də bu kimi xarakterik xüsusiyyətlər müşahidə edilə bilər. Şairin təsəvvüründə canlanan ideal aləmdən fərqli olaraq, ətraf aləm bəşər övladına layiq olmayan qeyri-təbii, yalnız boş görüntüdür. Əsərin qəhrəmanına bəzən elə gəlir ki, onun ətrafında cərəyan edən hadisələr sadəcə bir yuxu, qəribə, izahedilməz bir xülyadır. Reallıq isə ondan çox-çox uzaqlarda, əlçatmaz bir məkanda mövcuddur. Ümumiyyətlə, obrazlı yuxu motivi romantik incəsənətdə ikili mənalılığı özündə əks etdirir. Romantiklərin təsəvvüründə «şirin röya» real dünyada həyata keçirə bilmədikləri idealları, «acı röya» isə ona zidd olan real həyatın elə özünün təsviri öz əksini tapırdı. Romantiklər belə xəyal edirdilər ki, acı röyadan oyanıb onun əsarətindən qurtaran kimi, insana layiq olan ideal, işıqlı, bəşər övladının yalnız orda xoşbəxt ola biləcəyi bir dünyaya düşəcəklər.[1] Romantiklər əmin idilər ki, məhz əsl həyat, dünya belə olmalıdır. Lakin onlar real aləmin məhz xəyal etdikləri kimi mövcud olması üçün nə edəcəklərini təsvir etmirdilər. Belə bir metod ikili dünya konsepsiyasını meydana gətirdi, bu

[1] Edqar Allan Poe. Proza and Poetry. M.: Raduga, 1983, p. 81.

da sonralar incəsənətdə simvolik tendensiyaların meydana gəlməsinə zəmin yaratmış oldu.

E.Po yaradıcılığında da, iki fərqli dünyanın real və fantastik aləmin bir araya gəlməsinin təsvirləri ilə tez-tez rastlaşa bilərik. Təsadüfi deyil ki, ilk şeir kitabına (1827) daxil olan 7 şeirdə üçünün adı xəyal, yuxu, röya anlamları ilə bağlıdır.

Ömrünün son illərində, yəni 1849-cu ildə yazdığı «The Bells» («Zənglər») şeiri məşhur bəstəkar S.Raxmaninovun 1913-cü ildə eyni adlı musiqili əsərinin əsasını təşkil etməsi buna nümunə ola bilər. [1]

E.Po poeziyası ilə ilkin tanışlıqdan şeirdəki melonxolik, pessimistik, bədbinlik gətirən düşüncələrin təsiri altına düşür, önə çəkilən ölüm motivi, sevdiyi qadının itkisi və bu itkinin ona verdiyi əzab və işgəncələrin simvolik obrazlarda təcəssümü və öz əksini tapması, əlbəttə, heç bir oxucunu biganə qoya bilməz. Onun simvolik dünyası, əsasən özünün incəliyi, fəlsəfi dərinliyi, poetikliyi və ən əsası isə düzgün psixoloji təsir etmə gücü ilə xarakterizə oluna bilər.

Simvolist şair kimi E.Po ayrı-ayrı elementlərdən simvolik obraz kimi istifadə etmiş və bu obrazlarla sanki bu dünya ilə axirət dünyası arasında bir kontakt, əlaqə yaratmağa çalışmışdır. Qara rəngli quş da, sanki o dünyadan göndərilən bir müjdəçi kimi təsvir olunmuşdur. Ümumiyyətlə, quzğun obrazı bir çox xalqların mifologiyasında, xristian aləmində qara xəbəri gətirən, bəd xəbərin elçisinin simvoludur. Bu şeirdə isə Quzğun obrazı hüzn və kədərin, heç vaxt bitməyən xatirələrin simvoludur. E.Po hesab edirdi ki, daha təsir etmə qüvvəsinə malikdir və əldə etmək istədiyi effekti məhz «Nevermore» kəlməsi ilə ala biləcək. «Nevermore», əvvəlcə sadəcə bir söz, bir məna daşımayan bir kəlmə deyil, həm də fələyin hökmü ilə əbədi tənhalığa düçar olmağın simvolunu özündə əks etdirir. Şeirin əvvəlində təsvir olunan qəhrəmanın bədbin əhval-ruhiyyəsi, sevdiyi qadının itkisindən ah-nalə çəkməsi, bütün bu atmosfer şeirin sonunda tükürpədici, insanı riqqətə gətirən səhnə, quşun gözlərindən oxunana məna ilə müqayisədə çox adi və əhəmiyyətsiz görünür. Qəhrəman anlayır ki, artıq bitməz iztirabın, hüzn və kədəri özündə cəmləşdirmiş bu obraz – Quzğun onu heç bir zaman tərk etməyəcək.[2]

Dissertasiyanın *"Con Steynbekin hekayələrində insan, mənəviyyat və*

[1] Анастасьев П.Г. Литература США. М.: Издательство МГУ, 1973, с. 155.
[2] Edqar Allan Poe. The Complete Tales and Poems. New York: Penguim, 1938, p. 263.

*simvollar"* adlanan üçüncü fəslində ədibin yaradıcılığı ətraflı şəkildə araşdırılır.

1890-cı ildən başlayaraq, Amerika ədəbiyyatında sosial etirazın, Stefen Kreynin, Teodor Drayzerin naturalizmi və ifşaedici nasirlərin açıq-aydın xəbərləri ilə dolu olan sualtı axınlar keçir. Daha sonrakı dövrdə ictimai mövzularla məşğul olan yazıçılar sırasına aşağıdakılar daxildir: Sinkleyer Lyuis, Con Steynbek, Con Dos Passos, Riçard Rayt və Klifford Odets. Bu sənətkarları 1930-cu illərlə bağlayan cəhət, onların sadə vətəndaşların rifahının yaxşılaşdırılması barədə fikirləri cəmləşdirmələri idi. Bu xüsusiyyətlər Sinkleyer Lyuisin Arrosmiti, Babbiti kimi; Con Steynbekin Hiddətin Salxımlarındakı ailələri kimi və ya Dom Passonun ABŞ trilogiyasındakı on bir baş qəhrəman vasitəsiylə təsvir olunan şəhər camaatı kimi.

Con Steynbek də Sinkleyer Lyuis kimi bu gün ABŞ-dan kənarda onun daxilində olduğundan daha çox hörmətlə xatırlanır. Bu bəlkə də ən çox onunla əlaqədardır ki, o, 1963-cü ildə ədəbiyyat sahəsində Nobel Mükafatına layiq görülməklə, beynəlxalq miqyasda böyük şöhrət qazandı. Hər iki halda, Nobel Komitəsi, liberal Amerika yazıçılarını onların sosial tənqidçiliyinə görə seçirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Amerika ədəbiyyatında realist ənənələrin artımı müşahidə edildi. Bu dövrün yazıçıları ölkənin iqtisadi və sosial münaqişələri ilə üz-üzə gəlir və həmin problemləri öz əsərlərində əks etdirirdilər.

Müharibədən sonrakı ABŞ ədəbiyyatı ilk növbədə 20-30-cu illərdə məşhur yazıçıların adı ilə müəyyən olunur – Amerikanın realist ədəbiyyatının çiçəklənmə illəri – E.Hemenqueyin, C.Steynbekin, Folknerin yaradıcılığı, eləcə də Y.O'Nil, T.Vilyam, A.Miller, E.Olbi kimi dramaturqların adı ilə bağlıdır. Həmin yazıçıların yaradıcılıqlarında baş verən təkamül birmənalı deyildir. Folkner, Steynbek və Hemenquey üçün bu dövr yeni ədəbi nailiyyətləri ilə əlamətdardır. Onlar öz əsərlərində tarixi mövzularla yanaşı, müasir problemlərə də müraciət etmişlər.

Sosial həyatın irəliləyişinə əsaslanaraq, XX əsr Amerika ədəbiyyatnın inkişaf yolunu üç dövrə bölmək olar: XX əsrin 40-cı illərin sonu, 50-ci illərin II yarısı və 60-cı illərin I yarısı; 60-cı illərin II yarısı.

Birinci dövrə mənsub olan tananmış yazıçılardan biri C.Steynbekdir.

Görkəmli ədəbiyyatşünas S.Martini özünün «Kaliforniya yazıçıları» kitabında qeyd etmişdir ki, Kaliforniya iki dahi yazıçı yetişdirib: Cek London və Con Steynbek.

C.Steynbek 1902-ci ildə fevralın 27-də ABŞ-ın Kaliforniya ştatının

Salinas şəhərində anadan olub. O, uşaqlıq və gənclik illərini doğma Salinasda keçirib. Valideynləri onu gələcəkdə mədəni bir biznesmen kimi görmək istəyirdilər.

1923-cü ildə C.Steynbek yenidən Universitetdə təhsil alır. İlk hekayələrini Universitetin «Spekteyter» qəzetində çap etdirir.

C.Steynbek roman yazmaq məqsədilə 1925-ci ildə Universitetdən ayrılır.

Con Steynbekin yaradıcılığında nəsillər arasındakı əlaqə hiss olunur, 30-cu illərin problemləri ilə müasir dövrün problemləri arasında qırılmaz bir zəncirin olduğunu onun romanlarında açıq-aydın görə bilirik. C.Steynbek xalqı duyurdu, anlayırdı. Bu xüsusiyyət onun xalq içindən çıxdığını göstərirdi. Əsl xalq yazıçısı kimi, o «həyat məktəbi» keçmişdi.

XX əsrdə baş verən hadisələr – aclıq, işsizlik, insanların acı göz yaşları onun əsərlərində aparıcı mövqedə dururdu. İnsanlara qarşı olan haqsızlıqlar, bir parça çörəyə görə insanlar arasındakı münaqişələr, sahibkarların özbaşnalığı və s. C.Steynbekin əsərlərində bütün rəngarəngliyi ilə verilib.

Uşaqlıq hekayələri ilə real dünyanın çətinliklərini birləşdirən «Qırmızı Poni», «Red Pony»), «Müqəddəs Keti – bakirə» «St. Cathie - Virgin», bioloji etüd «İlan» («Snake»), lirik novella «Xrizontemlər» «Chrysanthemums» və başqa əsərlər Con Steynbekin yaradıcılığının ayrılmaz hissəsidir.

1937-ci ilin fevralında C.Steynbek «Uduzulmuş döyüşdə» romanını çap etdirir. Məşhur kitab klubu «Book of the men's» bu əsəri öz klub üzvlərinə göndərir və C.Steynbek ilk dəfə olaraq bütün Amerikada tanınmağa başlayır.

Ədəbiyyat sahəsində əldə etdiyi uğurlarının sayəsində C.Steynbek həyat yoldaşı ilə birlikdə Avropaya səyahət etmək şansını əldə edir. Onlar İnciltərədə, İrlandiyada, İsveçrədə və keçmiş SSRİ-də olurlar. Səyahət etdiyi ölkələrdə C.Steynbek həmişə insanlarla sıx ünsiyyətdə olurdu və onların həyat tərzləri ilə maraqlanırdı. Henri Mur onu haqlı olaraq «kasıbların yazıçısı» adlandırmışdır.

C.Steynbekin yaradıcılığı çox mürəkkəb və maraqlı olub. Yazıçının «Ay batdı» («The moon is down») əsəri özünəməxsus bir romantik tale ilə üzləşdi. Bu əsərin romantik taleyi haqqında Steynbek özü II Dünya müharibəsindən xeyli vaxt keçəndən sonra bilib. Təxminən 60-cı illərin ərəfəsində yazıçı İtaliyada olarkən orada bir italyanlı ilə tanış olur və o bildirir ki, «Ay batdı» əsərini müharibə illərində italyanlar gizlicə olaraq italyan dilinə tərcümə etmişlər və 500-ə yaxın nüsxədə çap etmişlər. Faşis-

tlər əsərin nüsxəsini kimdə görürdülərsə, onu sual-cavabsız, məhkəməsiz güllələyirdilər. Bu povest həmçinin Danimarka və Norveçdə də gizli şəkildə nəşr olunmuşdur. Zəbt olunmuş Avropa ölkələri üçün bu əsər amerikalılar tərəfindən böyük bir dayaq, ümid yeri rolunu oynayırdı.

1962-ci ildə C.Steynbek Nobel mükafatına layiq görüldü. C.Steynbek Nobel mükafatını alan altıncı amerikalı yazıçısı idi. Ondan əvvəl Sinkler Lyuis, Yudjin O'Nl, Perl Bak, Vilyam Folkner, Ernest Hemenquey bu mükafata layiq görülmüşlər. Lakin Amerika mətbuatı Nobel mükafatının yenidən Amerika yazıçısına verilməsindən narazı idi. Onlar Nobel mükafatının məhz C.Steynbekə verilməsinə görə İsveç Akademiyasını tənbeh edirdi, çünki onlar C.Steynbekin həqiqətən də real hadisələri əks etdirdiyinə şübhə ilə yanaşırdılar.

Con Steynbekin yaradıcılığı nəinki Amerika ədəbiyyatında, eyni zamanda dünya ədəbiyyatında da yüksək zivədə durur. Lakin bunu da qeyd etmək lazımdır ki, yazıçı birbaşa yüksək zirvə qalxmayıb. Bu zirvəyə gəlib çıxmaq üçün o, sanki pilə-pillə addımlayıb. Onun yarad-ıcılıq yollarında bir çox enmələr və yüksəlişlər olub.

C.Steynbekin ən məşhur əsərləri bir çox ölkələrdə öz mövzu aktuallığı ilə mşhurdur. Dünyanın bir sıra yerlərində onun əsərləri oxunur və sevilir, müxtəlif xalqların dillərinə tərcümə olunur. Onun əsərləri oxucunu əsasən öz sadəliyi ilə, həqiqətləri real əks etdirmə qabiliyyəti ilə, yumoru ilə, evsiz və kimsəsizlərə qarşı olan dəyişməz simpatiyası ilə cəlb edir.

Üçüncü fəslin "C.Steynbekin yaradıcılığında Amerika reallığı" adlanan ikinci yarımfəslində C.Steynbekin əsərlərindən danışarkən ilk növbədə onun şah əsəri olan «Qəzəb salxımları» romanı üzərində dayanılır. Yaradıcılığının ilk dövrlərindən başlayaraq addım-addım, pilə-pillə bu əsərə doğru irəliləyən C.Steynbek fərdi bacarığını və o illərin ictimai təcrübəsinə əsaslanaraq həmin yolu müvəffəqiyyətlə davam edirdi. Ədalətsizliklər, uğursuzluqlar, yanılmalar, 30-cu illərin Amerika həyatı və onun gələcəyi, isnanların mövcudluğu və mövcudluğun düşüncələri yazıçının həmin bu yaradıcılıq yolunun əsas motivləri idi. Hər yeni yazılan «Qəzəb Salxımları» romanınıa doğru gedən yeni addım idi.

«Qəzəb salxımları» əsərində yazıçı bütün parlaq və mənalı obrazları və motivləri cəmləşdirmişdir. Bu roman yazıçının «müəllif mövqeyi» baxımından ən yüksək keyfiyyətə malik olan əsərdir. «Qəzəb salxımları» mənəvi cəhətdən çox güclüdür. Bu əsər təkcə C.Steynbekin yaradıcılığında deyil, həm də ABŞ-ın realist ədəbiyyatında yüksək zivədə duran və tərbiyəvi əhəmiyyətə malik olan əsərdir.

Təbii ki, C.Steynbekin qələmi püxtələşdikcə, onun ölkədəki problemlər, amerikalıların sosial-iqtisadi həyatı və iş şəraitlərinin müşahidəsi və ölkənin ümumi acıncaqlı vəziyyəti yazıçıda müəyyən ideyaların, bədii fikirlərin formalaşmasına səbəb olurdu.

1938-ci ildə yazıçının özünün dediyi kimi, «Qəzəb salxımları» romanı asanlıqla yazılmağa başladı. Tez-tez yorğunluqdan şikayət edən C.Steynbek etiraf edirdi ki, ömründə heç vaxt belə çox və belə gərginliklə heç bir əsər üzərində işləməmişdir. Həmin il əsəri bitirib əlyazmasını Nyu-Yorka göndərdi.

«Qəzəb salxımları» romanında təsvir olunan Coudlar ailəsi on iki nəfərdən ibarətdir. Ailə üzvlərindən başqa, onlara bir xətib də qoşulur. On minlərlə başqaları – qonşular, qohumlar, uzaq və yaxın tanışlar kimi onlar da var-yoxlarını dəyər-dəyəməzə satırlar. Balaca bir yük maşını üçün pul yığırlar və öz doğma yerlərindən ayrılmağa məcbur olurlar. Coudların səyahəti belə başlayır.

Təbiət faciələri ilə yanaşı romanda qabarıq şəkildə iqtisadi ünsürlərin faciəsi də əks olunub. Bunlar əsərdə iki şəkildə təqdim olunmuşdur: insanlıqdan kənar olan obrazlar – yırtıcılar: insanlar tərəfindən yaradılan bank altında saxlamağa qadirdir. Müəllif bu əsərdə bank və traktoru xırda əkinçilik üçün təhlükə simvolu kimi təqdim edir.

C.Steynbekin yaradıcılığında «Qəzəb salxımları» əsəri mühüm yer tutur. «Qəzəb salxımları» romanı dərin simvolik səhnə ilə bitir: Coudlar daşqından xilas olunub bir daxmada məskən salırlar. Həmin daxmada yad bir adam acından ölür və Roza Sarena ona kömək edir. Yad adam ölümdən xilas olur.

C.Steynbek mübarizəni və mərhəməti çox gözəl obrazla birləşdirmişdir. O, xalqa, onun ruhunun möhkəmliyinə inanırdı. O, insanlığın həmrəyliyinə inanırdı. O bilirdi ki, insanlarda həyat hissini öldürmək olmaz.

«Qəzəb salxımları» Ameriaknın ictimai həyatında və ədəbiyyatında yeni bir hadisə kimi qarşılandı. Düzdür, bəzi jurnal və qəzetlər, hətta bəzi yazıçılar dəfələrlə Kaliforniyada baş verən torpaqsızlıq, işsizlik kimi problemlərə dəfələrlə müraciət etmişdilər. Lakin heç kim C.Steynbek kimi həmin problemləri real çalarlarla, real faktorlarla əks etdirməyə qadir olmayıb. «Qəzəb salxımları» romanından yaranan təəssüratları ədəbiyyatşünaslar Harrist Biçer Stonun «Tom dayının koması» romanından alınan təəssüratlarla müqayisə edirlər. Bəzi tənqidçilər isə «Qəzəb salxımları» romanını görkəmli bir hadisə kimi qiymətləndirdilər.

C.Steynberkin sonralar yazdığı heç bir əsəri «Qəzəb salxımları» ilə mü-

qayisə oluna bilməz. Hətta iyirmi ildən sonra yazdığı əsərləri də C.Steynbeki şöhrətləndirə bilmədi. Sənətkar yaradıcılığında elə bir zirvə var ki, onu yalnız bir dəfə fəth etmək olar. Məlumdur ki, C.Steynbek həmin zirvəni «Qəzəb salxımı» əsəri ilə fəth etmişdir.

Amerikada baş verən hadisələrə yeni prizmadan yanaşan C.Steynbekin Amerika reallıqlarını qəbul etməməsi, amerikalıların öz həyat tərzlərinə göz açmaq arzusu onu yeni bir roman yazmağa vadar etdi. Bu «Narahtlığımızın qışı» əsəridir.

Məlumdur ki, aşağı səviyyədə yazılmış romanlar insanı əyləndirir, orta səviyyədə yazılmış roman insanın hissələrinə təsir edir, yüksək səviyyədə yazılmış roman isə insanın yolunu işıqlandırır. C.Steynbek öz yaradıcılığında «insanın yolunu işıqlandırmaq» istiqamətini əsas götürmüşdür.

Ürəktutmasından şikayətlənən C.Steynbek «Narahatlığımızın qışı» romanını xəstəliyi üzündən yarımçıq qoyur. Lakin xəstəxanadan çıxarçıxmaz yenidən qələmi əlinə götürür və başladığı işi bitirməyə çalışır.

C.Steynbek 1960-cı ilin payızında «Narahatlığımızın qışı» romanını yazıb qurtarır. 1961-ci ilin qışında roman nəşr olunur. Bu roman yazıçının əvvəlki romanlarının heç birinə bənzəmir.

C.Steynbek məşhur romanlar yazmaqla yanaşı, publisist əsərlər də yaratmışdır. Onun «Çarli ilə Amerika axtarışlarında» əsəri əsasən yol qeydlərindən ibarətdir. Amma bu əsər heç də təsadüfi hadisələr əsasında yox, real faktlar əsasında yazılmışdır. Məhz buna görə bu əsər yol əhvalatları xarakterindən uzaqlaşıb real hadisələr əks olunan əsərlər silsiləsinə daxil olur. Gördükləri və eşitdikləri onda xoşagəlməz təəssüratların yaranmasına səbəb oldu, lakin yazıçı əsəri şirinləşdirmək üçün heç bir epitetlərdən, mübaliğələrdən istifadə etmirdi.

«Çarli ilə Amerika səyahətində» – müəllifin yeni yerlər və yeni insanlar haqqında, öz şəxsi fikirlərini və düşüncələrini əks etdirən publisist əsərdir.

Yazıçı XX əsrin 30-cu illərindəki Amerika həyatı haqqında geniş məlumat verir və reallıqdan bir addım da olsa, uzaqlaşmır. Yazıçı ştatdan-ştata olan fərqləri açıq-aydın əks etdirmişdir. [1]

Xalqın ruhi, mənəvi kasıblığını C.Steynbek hər addımda görürdü və əlbəttə, bu halın mövcudluğuna təəssüblənirdi.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatda gəlinən nəzəri qənaətlər ümumiləşdirilmiş və problemin əsas müddəaları diqqətə çatdırılmışdır.

---

[1] Воскресенская М.А. Символизм как мировоззрение серебряного века. М.: Логос, 2005, с. 230.

Tədqiqatda aşağıdakı əsas nəticələr əldə edilmişdir:

Amerika ədəbiyyatında simvolların işlədilməsi Uilliam Kullen Brayant, Edqar Allan Po və Con Steynbek yaradıcılığı üçün səciyyəvidir;

U.K.Brayant yaradıcılığının (həm lirik, həm də epik əsərlərində) ifadə vasitələri əksər hallarda çoxlu sayda simvollarla müşayiət olunur;

Edqar Po poeziyasının elə cəhətləri vardır ki, onlar nəinki Amerika ədəbiyyatında "həm də bütünlükdə Qərb ölkələri ədəbiyyatında öz orijinallığ"I ilə seçilir;

Con Steynbekin yaradıcılığı XX əsr Amerika ədəbiyyatını zənginləşdirmiş, bu ədəbiyyatın yeni mərhələyə daxil olmasına, həm də Avropa ədəbiyyatının ənənələrinin inkişaf etdirilməsinə təkan vermişdir;

Con Steynbek insan və müasir cəmiyyət problemini qabarıq şəkildə təsvir etməyə nail olmuş və bu zaman simvollardan bacarıqla istifadə etmişdir;

U.K.Brayant, E.Po və C.Steynbek Amerika ədəbiyyatında yeni ənənənin əsasını qoymuşlar;

U.K.Brayantın, E.Ponun və C.Steynbekin ayrı-ayrı əsərlərində simvolların işlədilmə prinsipləri, onların məna çalarları, tarixiliyi, milliliyi və yeni dövrdəki mənaları bu ədiblərin hər birinin yaradıcıslığında özünəməxsusluğu ilə seçilir.

Dissertasiyanın əsas məzmunu və elmi nəticələri müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:

1. Con Steynbekin «Payız gülləri» hekayəsində simvolların işlədilməsi //. Elmi xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2007, № 2, s. 187-190
2. Con Steynbek və XX əsr Amerika ədəbiyyatı // Ədəbi Əlaqələr. IV toplu. Bakı: Qartal, 2010, s. 138-147
3. Edqar Ponun poeziyasında simvolik obrazlar və onların bədii xüsusiyyətləri // Ədəbi əlaqələr, V toplu. Bakı: Qartal, 2011, s. 164-174
4. Символизм в творчестве Вильяма Куллена Брайанта. Язык, Культура, Этикет в современном полиэтническом пространстве / Материалы Международной конференции.Кабардино-Балкарский государственный университет. Нальчик, 2012, s. 69-72
5. R.V.Emerson poeziyasının simvollar aləmi // Ədəbi Əlaqələr. VI toplu. Bakı: Qartal, 2012, s.115-124
6. Symbolic characters in the poetry of Edgar Poe and their literary features // Хабаршы Вестник. Серия «Филологические науки», 2012, № 3 (41), Алматы: Казахский национальный педагогический университет имени Абая. s. 88-91
7. XX əsr ABŞ ədəbiyyatında simvolların işlədilməsi // Filologiya məsələləri. Bakı: Elm və Təhsil, 2013, № 10, s. 405-411
8. Con Steynbek yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi // Filologiya məsələləri. Bakı: Elm və Təhsil, 2014, № 4, s. 326-333.

Ирада Бакир гызы Абдуллаева

# ХУДОЖЕСТВЕННЫЕ СИМВОЛЫ В АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ
(на материале творчества Уильяма Брайанта, Эдгара По и Джона Стейнбека)


## Резюме

Тема диссертации является первой исследовательской работой, в которой рассматриваются художественные символы в творчестве У.Брайанта, Э.По и Дж.Стейнбека.

Диссертация состоит из введения, трех глав и заключения.

Во введении говорится об актуальности темы, объекте, цели и задачах исследования, его новизне, методологической основе, теоретической и практической значимости, формулируются положения, выносимые на защиту.

Первая глава диссертации состоит из двух подглав и имеет название «Значение символов в творчестве Уильяма Каллена Брайанта и в американской поэзии». В первой подглаве исследуются символы в поэзии У.К.Брайанта, во второй подглаве рассматривается история изучения символов в американской поэзии.

Вторая глава «Символическое изображение человека в поэзии Э.По» также состоит из двух подглав. В первой подглаве исследуются поэтические принципы Э.По, во второй подглаве в центре внимания находятся символические образы и их художественные особенности в поэзии известного американского поэта.

Третья глава называется «Человек, любовь и символы в творчестве Джона Стейнбека». В первой подглаве исследуется роль Дж.Стейнбека в развитии американской литературы XX века, во второй подглаве прослеживаются американские реальности в творчестве Дж.Стейнбека.

В заключении диссертационной работы обобщены основные выводы о художественных символах в творчестве У.Брайанта, Э.По и Дж.Стейнбека.

İrada Bakir Abdullayeva

# LITERARY SYMBOLS IN AMERICAN LITERATURE
## (on the basis of creative activity of William Bryant, Edgar Poe and John Steinbeck)

Summary

The theme of the thesis is the first research work in which literary symbols in the creative activities of W.Bryant, E.Poe and J.Steinbeck are investigated. The thesis consists of an introduction, three chapters and conclusion.

In the introduction the author deals with the urgency of the theme, the object of investigation, the aims of investigations, the innovation from the scientific view points, the brief methodological background of the thesis and with its practical value.

The first chapter consists of two subtitles and is called "The Meaning of symbols in the creative activity of W.K.Bryant and in American poetry". In the first part of the first chapter symbols and poems of W.K.Bryant are investigated. In the second subdivision of the chapter the history of investigation of symbols in American poetry is considered.

The second chapter is titled "Symbolic depiction of a person in the poems of E.Poe". This chapter also consists of two subtitles. In the first subtitle poetic principles of E.Poe are studied. In the second part of the second chapter symbolic characters and the literary features of the poems of famous American poet are in the focus of attention.

The third chapter is called "Human being, love and symbols in the creation of John Steinbeck. In the first part of the third chapter the role of J.Steinbeck in the development of American literature in the XX century is investigated. In the second part American realities in the creation of John Steinbeck is considered.

In the conclusion of the thesis the main conclusions on the literary symbols in the creation of W.Bryant, E.Poe and J.Steinbeck are generalized.

Çapa imzalanıb: 12.06.2014
Format: 60x84 1/16. Tiraj: 100. Sifariş № 26.

"Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərкəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ИРАДА БАКИР гызы АБДУЛЛАЕВА

# ХУДОЖЕСТВЕННЫЕ СИМВОЛЫ В АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ
(на материале творчества Уильяма Брайанта, Эдгара По и Джона Стейнбека)

5718.01 – Мировая литература (литература США)

АВТОРЕФЕРАТ

диссертации на соискание учёной
степени доктора философии по филологии

Баку – 2014